


XXXI Rio-de-Janeyro Yay Olimpiya Oyunları

AZERBAIJAN



# Güləşdə ilk medal...

## Yunan-Roma güləşçimiz Sabah Şəriəti olimpiadanın bürünc mükafatçısı oldu

XXXI Yay Olimpiya Oyunlarının başa çatmasına sayılı günlər qalıb. Sevindirici haldır ki, avqustun 15-də atletlərimiz ölkəmizin hesabına daha 2 medal yazdırıblar. Əvvəlcə boks yarışlarında Kamran Şahsuvarlı 1/4 final çərçivəsində qazaxıstanlı Janıbek Alimxanuliyə qalib gələrək yarımfinala yüksəlməklə özü üçün minimum bürünc medalı təmin edib. Bu, Azərbaycan yığmasının Rio Olimpiadasında qazandığı üçüncü medal olub.

Sözsüz ki, olimpiadada xalqımızın medal gözlədiyi idman növləri sırasında ən yüksək pillədə güləş yer alır. İlk yarış günündə təəssüflər olsun ki, medal ümidlərimizdən biri - Pekin və London olimpiadalarının gümüş mükafatçısı Rövşən Bayramov medalın bir addımlığında şansı əldən verdi.

Bu təəssüfedici hal 2-ci yarış günündə sevinc hissi ilə əvəz olundu. Nəhayət, Riodan gözlənilən xəbər gəldi. Şübhəsiz, olimpiadada qazanılan ilk uğur hər bir komanda üçün daha yaddaqalan olur. Güləş yığmamız bu uğura yunan-Roma yarışlarında imza atdı. Millimizin üzvü 130 kq çəki dərəcəsində yarışan Sabah Şəriəti ölkəmizin hesabına 4-cü medalı yazdırdı. Düzdür, əldə edilən medalın əyarı bürünc olsa da, bunun Olimpiya Oyunlarında güləş yığmamızın qazandığı ilk mükafat olduğunu nəzərə alsaq, pəhləvanımızın zəhməti yüksək qiymətləndirilməlidir.

Sabah Şəriəti mübarizəyə 1/8 final mərhələsindən qoşulub. İlk Avropa Oyunlarının gümüş mükafatçısı amerikalı David Smitlə üz-üzə gəlib. Görüşü 8:2 hesabı ilə qalib başa vuran təmsilçimiz adını 1/4 finala yazdırıb. Onun bu mərhələdəki rəqibi türkiyəli Rıza Kayaalp olub. R.Kayaalp qarşısında 0:5 hesabı ilə uduzan təmsilçimiz medal şansını itirməyib. Türkiyəli güləşçinin finala yüksəlməsindən sonra S.Şəriəti bürünc medal üçün təsəlliverici görüşlərə qatılıb.

O, təsəlliverici görüşlərin ikinci mərhələsində venesuelalı Ervin Xose Kabrera Karaballo ilə güləşib. Görüşü 8:0 hesablı qələbə ilə başa vuran idmançımız bürüncə bir addım da yaxınlaşıb. Mükafatçılar sırasına düşmək üçün onun son rəqibi almaniyalı Eduard Popp olub. Hesab 2:0 Sabahın xeyrinə davam edərkən rəqibinin kürəyini yerə sıxmağı bacaran pəhləvanımız tam qalib gəlib və güləş yığmamıza ilk medalı qazandırıb.

Ən ağır çəkidə çempion kubalı Mixeil Lopez Nunyez, ikinci isə türk güləşçi Rıza Kayaalp olub. Digər bürünc medalı isə rusiyalı Sergey Semyonov əldə edib.

Sabah Şəriəti (130 kq) görüş başa çatdıqdan sonra mətbuata açıqlamasında Azərbaycan bayrağını mükafatçılar sırasında gördüyünə görə çox sevindiyini bildirib: "Çox şadam ki, qalib gəldim, olimpiya medalı qazandım. Çox çətin məşq proseslərinin yekunda bəhrəsini gördük. Məşqçilərimə, federasiyaya, zəhməti olan hər kəsə təşəkkür edirəm. Allaha min dəfə şükür ki, Azərbaycan bayrağını qaldıra bildim. Alman güləşçi güclü rəqib idi. Avropa çempionatında ona uduzmuşdum. Ancaq burada məşqçilərin də tövsiyəsi ilə fərqli taktika ilə güləşdim və qalib gəldim. Asan olacağını gözləmirdim. Şükür edirəm ki, ilk medalı mən qazandım. Bunu bütün Azərbaycan xalqına həsr edirəm".



Məlumat üçün qeyd edək ki, Sabah Şəriəti 2013-cü və 2014-cü ildə paytaxtımızda Heydər Əliyevin xatirəsinə həsr olunan "Qızıl Qran-pri" turnirinin qızıl medalına sahib olub. "Bakı-2015" ilk Avropa Oyunlarının gümüş mükafatçısıdır. Sabah Şəriəti I Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib.

Bu dəfə Rioda gözəl çıxış və bunun nəticəsində qazanılmış bürünc medal... Pəhləvanımıza uğurlar arzulayırıq! Ümid edirik ki, Sabahın qazandığı bu uğur ölkəmiz üçün axarıncı və güləş yığmamıza növbəti yarış günləri üçün düşərli olacaq. İnanırıq ki, Rioda ölkəmizə bürünc medal qazandırmış güləşçimiz dörd il sonra Yaponiyada keçiriləcək Olimpiya Oyunlarında hamımızı qızıl mükafatla sevindirəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*